

# Cənubi Qafqazda Biomüxtəlifliyin Davamlı İdarə Olunması


gtz

Federal Ministry
for Economic Cooperation
and Development

Ekologiya və
Təbii Sərvətlər
Nazirliyi

ƏMƏKDAŞLIQ
AZƏRBAYCAN RESPUBLİKASI
ALMANİYA FEDERATİV RESPUBLİKASI

## Biomüxtəlifliyin Davamlı İdarə Olunması
## Cənubi Qafqazda Texniki Əməkdaşlıq Proqramı

**Proqram ərazisi:** Cənubi Qafqaz ölkələri

**Donor:** Alman Federativ İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ)

**Proqram müddəti:** İyun 2008 - May 2016

### Məzmun

Cənubi Qafqaz ölkələrində təbii sərvətlərin üzərindəki təsir olduqca yüksəkdir. Aztəminatlı kənd əhalisinin geniş yayılması, enerjiyə və xammala olan yüksək tələbat və sürətli iqtisadi inkişaf, kənd əhalisinin təbii gəlir mənbələrinin məhvinin sürətlənməsinə səbəb olmaqdadır. Regionda biomüxtəliflik üzərində qurulmuş biznes fəaliyyətlərinin bir hissəsi qorunan ərazilərin bilavasitə içərisində və ya onların ətrafındadır ki, bu da təbiət üçün təhlükə yaradır. Təbii sərvətlərin davamlı idarə olunması konsepsiyası dövlət, ictimaiyyət və özəl sektorun fəaliyyəti çərçivəsində hələ ki yer almamışdır.

### Məqsəd

Proqramın əsas məqsədi təbii sərvətlərin davamlı idarə olunmasını dövlət, ictimaiyyət və biznes sahəsində aparılan fəaliyyətlərlə inteqrə etməkdir. Artıq, qorunan ərazilərin yaradılması biomüxtəlifliyin saxlanılması üçün yeganə yol olaraq qəbul olunmur. Təbii sərvətlərdən istifadə ilə kənd əhalisinin iqtisadi inkşafı arasındakı əlaqənin uğurlu nümunələri bu sahəyə dövlət və özəl sektorun qoyacağı sərmayənin daha da artmasına gətirib çıxaracaqdır.

### Yerli səviyyədə

Yerli səviyyədə biz təbii sərvətlərin davamlı istifadəsini dəyər zəncirləinin yaradılması ilə dəstəkləyirik. Biomüxtəlifliyin effektli idarə olunması yerli əhalinin ticarət və biznes fəaliyyətləri üçün yeni imkanlar yarada bilər. Bu təcrübələr həmçinin qadınlar üçün də davamlı gəlir imkanları yaradan vasitə kimi uğurla sınanmışdır.

### Ölkə səviyyəsində

Bizim proqram Cənubi Qafqaz ölkələrində biomüxtəlifliyin davamlı idarə olunması üçün uyğun mühitin yaradılmasına kömək edir. Bu məqsədlə proqramımız aşağıdakı dəstəyi göstərə bilər:

- Uyğun qanun və qaydaların eləcə də müxtəlif istifadə vəsaitlərinin yenilənməsi
- Qurumların və imkanların inkişafı
- Müvafiq Nazirliklərin və digər qurumların əməkdaşlarının təkmilləşdirilməsi
- Ekoloji təhsil

### Regional səviyyədə

Qeyd edilən fərqlər Cənubi Qafqaz ölkələrində müxtəlif yanaşmalar tələb edir. Tədbirlər hər ölkəyə məxsus tərzdə və tələblərə uyğun həyata keçirilir. Proqram həmçinin mümkün olan hallarda iqtisadi imkanları və təcrübələri bölüşdürərək ölkələr arasında sərhədaşırı dialoqları və texniki mübadilələri təşviq edir.

# Fəaliyyət sahələri

## Struktur şərtləri



Biomüxtəliflik Konvensiyasını (CBD) həyata keçirmək üçün dəstəyə ehtiyac vardır. Treyninq və məlumat səfərləri bizim tərəfdaşlarımızda biomüxtəlifliyin davamlı idarə olunmasına dair yeni ideyaların inkişaf etdirilməsinə təkan verir.

Biz CBD-nin həyata keçirilməsini mütəxəssislərin təkmilləşdirilməsi və texniki kömək vasitəsi ilə dəstəkləyirik.

## Biomüxtəliflik Monitorinqi



Təbii sərvətlərin davamlı idarə olunması yalnız onun şərtlərinə kifayət qədər bələd olduqdan sonra mümkündür. Monitorinq bitki və heyvan növləri, onların yayıldığı ərazilər və həmçinin rastlaşdığı çətinliklər haqqında məlumat verir. Monitorinq biomüxtəlifliyin daha yaxşı planlaşdırılması və idarə olunmasını təmin edir.

Biz biomüxtəlifliyin monitorinqini ölkə səviyyədə dəstəkləyirik.

## Təbii sərvətlərin davamlı idarə olunması



Təbii sərvətlərin davamlı idarə olunması təbiətimizi qorumağa yardım edir. Bu ehtiyatlı planlaşdırmanı və təbii sərvətlərin bütün istifadəçilərinin iştirakını tələb edir. Bizim pilot regionlarımız Şirvan Milli Parkı və Zaqatala rayonudur.

Biz menecment planlarının inkişafını və sərvətlərin davamlı istifadə modellərini dəstəkləyirik.

## İctimai təbliğat



Nə qədər çox insan su və bataqlıq quşları, ceyranlar və ya dərman bitkiləri haqqında bilsələr, onlar bir o qədər çox qorunar. Bu məqsədlə biz Azərbaycanın unikal təbiəti haqqında bilikərin artırılması və qiymətləndirməsi üçün uşaqlar, tələbələr və müəllimlərlə işləyirik.

Biz biomüxtəliflik haqqında biliklərin artırılması məqsədi ilə ictimai təbliğat kompaniyalarının inkişafı və həyata keçirilməsində dəstək veririk.

## Dəyər zəncirləri



Təbii sərvətlərin səmərəli istifadə olunması da mənfəət gətirir. Təbii məhsulların düzgün emalı və satışı yerlərdə gəlirlərin artmasına gətirib çıxarır. Təbii sərvətlər, gələcək nəsillərin xeyrinə davamlı şəkildə toplanılmalıdır.

Biz seçilmiş təbii məhsullar və ekoloji xidmətlərin dəyər zəncirlərinində inkişaf etdirilməsinə dəstək veririk.



Rəsimlər: GTZ/ Hartmut Müller/ Kristian Qönner


Ekologiya və
Təbii Sərvətlər
Nazirliyi

B. Ağayev küç. 100-A
1073 Bakı, Azərbaycan
Tel/Fax: +994 12 4927369
www.eco.gov.az

**Deutsche Gesellschaft für Technische Zusammenarbeit (GTZ) GmbH**

GTZ-in Bakı ofisi, Nizami küç.
10, 5-ci mərtəbə AZ1001 Bakı, Azərbaycan
Tel/Fax: +994 12 4978068
E-mail: christian.goenner@gtz.de
www.gtz.de